Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı

ORTA ASİYADA DAŞNAKLARIN TÖRƏTDİYİ FACİƏLƏR "BÖYÜK ERMƏNİSTAN" İDDİALARI FONUNDA

Tanınmış araşdırmaçı yazar Xaqani İsmayılın "Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı" kitabı bədnam qonşumuzun bütün yalanlarını ifşa edən, onların xislətini ortaya çıxaran və bir çox tarixi faktlara işıq tutan ən mükəmməl vəsaitlərdən biridir. Müəllifin böyük zəhməti hesabına 3 dildə - Azərbaycan türkcəsi, rus və ingiliscə çap olunan kitabın, xüsusən də bütün dünyanın diqqətinin Qarabağa yönəldiyi indiki ərəfədə, geniş yayılmasına ciddi ehtiyac duyuruq. Odur ki, AMEA Tarix İnstitutunun və İnsan Hüquqları İnstitutunun rəyi və tövsiyəsi ilə nəşr olunan bu kitabın "Hürriyyət" qəzetində hissə-hissə dərcinə qərar verdik. Buyurun, oxuyun.

(Əvvəli ötən saylarımızda)

Çağdaş özbək müəllifi, tarixi araşdırmaçısı Şöhrət Barlasın açıqlamalarına görə, ermənilər hələ 1918-ci ilin əvvəllərində Kokand Sovetinin sədri erməni Saakovun başçılığı altında pulemyotlar və artilleriya ilə silahlanmış qüvvələr Türküstan Milli-Azadlıq Hərəkatının ilk önderi qurbaşı (görkəmli səhra komandanı -X.İ.) Kiçik Erqaşın doğma qışlağı Bəçkirə hücuma keçmiş və bu yaşayış məntəqəsini yandırmışlar. Həmin silahlı dəstə yol boyu günahsız dehqanları (kəndli, əkinçi-X.İ.) güllələyə tutmuş, bir sıra qadın və qızın şərəfinə toxunmuş, həmçinin soyğunçuluq törədərək əhalinin ev əşyalarını özləri ilə aparmışlar.

Daşnakların əsas qüvvələri Kokandı yandırıb yerli əhaliyə qarşı qırğın törədən zaman təkcə özbəklər deyil, farslar, yəhudilər və hətta ruslar da daxil olmaqla azsaylı icmalar da qırğına məruz qalmışdılar... Daşnakların başqa bir dəstəsi Kokandın dinc əhalisini qırıb-çatdıqdan sonra, Suzak kəndini tutdu və oradakı bütün əhalini güllələdi. Qırmızı Ordunun (təkibində daşnaklar olan) üçüncü dəstəsi Bazar-Kurqan yanında xalq üsyançıları ilə döyüşə girdilər və geri çəkilməli oldular. Bu nahiyədəki bütün qışlalar 20 gün hücuma məruz qaldı, kişi cinsindən olanlar yaşına fərq qoyulmayaraq öldürüldü. Bəziləri xilas olaraq öldürülmüş soydaşlarını dəfn etmək istərkən yenidən daşnak qrupları peyda olur, onları və hətta təzə qəbir üstə dua edənləri yerindəcə məhv edirdilər.

Ş. Barlas tədqiqatlar nəticəsində bu qərara gəlmişdir ki, həqiqətən rus bolşevikləri Fərqanə vadisinin ağalığını ermənilərə həvalə etməyə çalışırmış: 1918-ci ilin iyununda Oş şəhərinə soxulan daşnaklar həmin ilin dekabrında Calal-Abad ətrafındakı yaşayış məntəqələrinə hücuma keçib, qışlalarda müsəlman qadınlarını da oğurlayaraq qənimət kimi özləri ilə Əndican qalasına aparmışlar...

1919-cu ilin fevralında Türküstan Milli Azadlıq Hərəkatı hissələrin Əndicanda hərbi əməliyyatlara başlaması qədim Əndicanın dinc sakinlərinin qılıncdan keçirilməsi, talana dücar edilməsi, qadınlarının isə zorlamalara məruz qoyulması üçün yenidən bir bəhanə oldu. Qədim şəhərin gənc qızlarını erməni daşnakları arabalarla Əndican qalasına aparırdılar.

1918-ci ildən 1919-cu ilin ortalarınadək Əndicandakı bolşevik hakimiyyəti, demək olar ki, erməni daşnaklarının nəzarətində idi (Yenə orada).

1918-ci il və 1919-cu ilin I rübü ərzində Türküstanın Fərqanə vadisində daşnaklar, demək olar ki, vadidəki bütün şəhərləri və 180 kəndi talan və məhv etdilər. Kokandda 3 gün ərzində 10 min, Margilanda 7 min, Əndicanda 6 min, Namanqanda 2 min, Bazar-Kurqanla Kokandqışlaq arasında 4,5 min nəfər dinc, mülki əhali qətlə yetirildi...

İlkin hesablamaların nəticəsi olaraq Özbəkistan Milli Ensiklopediyasında dərc olunmuş məlumatlara görə, Fərqanə vadisindəki hadisələrdə daşnak qurbanlarının sayı 35 min nəfərdən artıq olmuşdur. Qeyri-rəsmi versiyalara əsaslanaraq bu rəqəmin 150 min nəfəri keçdiyi də bildirilir. Bütünlükdə bolşevik təcavüzü isə Türküstana milyonlarla insanın həyatı hesabına başa gəldi. Baymirzə Hayitin yazdığına görə, Türküstanda öz azadlığı uğrunda savaşan sakinlərin 2 milyon nəfəri sovet Rusiyası əsgərləri tərəfindən öldürüldü, 1,5 milyon türküstanlı isə xarici ölkələrə sığınmalı oldu. Şaxobiddin Yassaviy 1920-1935-ci illər aralığında Türküstandan mühacirətə üz tutanların 2 milyon nəfərdən artıq olduğunu bildirir.

Vaxtilə Türküstan MSSR-nın hərbi komissarı və rəhbərlərindən biri olmuş erməni Osipovun bəyanına əsaslanaraq, Ş.Barlas hesab edir ki, Orta Asiyada bu qanlı hadisələri törədən "Daşnaksütyun" Qafqazda da hərbi əməliyatlar aparmaq üçün Qırmızı Ordu hissələrinin formalaşdırılmasında iştiraka hazır idi (Yenə orada).1918-ci ilin martından etibarən daşnakların öncüllüyü ilə Qafqazda baş verən qanlı hadisələr Osipovun bəyanının təsadüf olmadığını təsdiq edir.

Ş. Barlas araşdırmalar nəticəsində bu qənaətə gəlmişdir ki, Yerevanın elmi qurumları ötən yüzilliyin 70-ci illərindən başlayaraq "böyük Ermənistan" uydurmasını "elmi şəkildə əsaslandırmaq" yönündə ciddi şəkildə səylərə başlamış və həmin dövlətin çağdaş Türkiyə, Gürcüstan, Azərbaycan, İran, Suriya, Livan və hətta İsrail ərazilərini əhatə edən geniş xəritəsini də tərtib etmişlər (Yenə orada).

İngilis tədqiqatçıları (və onlara istinad edən başqa müəlliflər) yazırlar ki, qırğına məruz qalan yerli əhalinin sayını dəqiq müəyyən etmək mümkün olmasa da, bircə şeyi qeyd etmək olar ki, şübhəsiz, bu böyük say təşkil edir. Kokandın əhalisi 1897-ci ildə 120000 nəfər idisə, bu say 1926-cı ildə 69300-yə enmişdi. Şəhər dağıdılmış və yandırılmışdı. Sadıxlının göstərdiyi kimi, "boşeviklərin bu müttəfiqləri Türküstan kasıblarının gözü qarşısında özlərini o qədər etibardan salmışdılar ki, Fərqanə kommunistlərinin xahişi ilə bölgədə məsələ beləcə qəti şəkildə qoyulmuşdu: "Türküstan hökuməti "Daşnaksütyun" partiyası ilə münasibətləri kəsməyi qərara alır, əks halda faktlar erməni millətçi partiyası "Daşnaksütyun"un mahiyyətini birdəfəlik ifşa edəcəkdir".

"Daşnaksütyun"un əksinqilabçı cəbhəyə sayılması da Orta Asiyada qüvvə paylaşmasında dəyişikliyə gətirib çıxarmadı: 1922-ci ildə isə Türküstan cəbhəsindəki komandan Semyon Budyonnını Qaspar Voskanov əvəz etdi. (Qeyd: erməni hərbçisi Qaspar Karapetoviç Voskanov 1921-1922 cı illərdə Rusiyanın 2-ci sərhəd diviziyasının (47-ci piyada divisionla) komandanı, 1925-1926-cı illərdə Türküstan Cəbhəsi komandanının köməkçisi və s... kimi görevləri daşımışdı - X.İ.). Ona qarşı dayanan Türkiyədən mühacirət etmiş ünlü Ənvər paşa idi. Ənvər paşa öncə Britaniya Hindistanının müsəlman əhalisi arasında qiyam qaldırmaq istədi, ancaq sonra basmaçılara, daha doğrusu, Orta Asiya əhalisinin üsyançı hərəkatına qoşuldu. Bundan sonra Lenin, Trotski və Dzerjinski Türküstan cəbhəsinə teleqramlar yağdıraraq Ənvər paşanı diri tutmaq əmri vermə yə başladılar. Bununla Ənvər paşanı yəqin ki, Atatürkə qarşı istifadə etmək planını gerçəkləşdirməyə çalışırdılar. (Nuraninin yazdığı kimi, Atatürk Türkiyəsinə istiqlal savaşında yardım edən Sovet Rusiyası ola bilər ki, təxmin etməmişdi ki, elə həmin qüvvələr hakimiyyətə gələrkən Sevr müqaviləsini tarixin arvivinə atacaqlar.) Bəlkə də Ənvər paşa ilə bağlı planla Lenin hökuməti 1922-ci ilədək qanunla sultan vəzifəsini daşıyanVəhidəddinə qarşı təzyiq vasitəsi əldə etmək, onun mövqelərini zəiflətmək istəyirdi.

Voskanov isə tezliklə I xüsusi süvari briqadasının komandanı Akop (Yakov) Melkumyana belə bir teleqram göndərir: "Mənə ölü Ənvər lazımdır. Oxu. Düşün. Yubanmadan yandır." Sonra Yakov Melkumyan erməni jurnalistlərə söhbəti zamanı daşnak terror silsiləsinin davamına işarə verərək açıqca deyir: "Ənvəri mən öldürdüm".

Orta Asiya ictimai-siyasi xadimi, sonralar mühacirətdə yaşamış Baymirza Hayitin yazdığına görə isə, ruslar Bakıda bir otəldə Ənvər Paşanı Reissich isimli bir casusa öldürtmək istəmişlər, fəqət bacara bilməmiş, onun Şərqi Buxaradakı hərəkətlərini izləməyi erməni Ağabekova həvalə etmişlər. Ağabekov 4 yəhudi, 3 fars, 5 erməni, 1 özbək, 1 tacik, 3 hindistanlı və 2 rus tacirindən ibarət bir xəfiyyə şəbəkəsi qurmuşdur. Bunlardan yalnız 2 rus, 1 erməni və 1 yəhudi əsas məqsəd olan Ənvər Paşanın yerini təsbitdən xəbardardır. Şəbəkə nəhayət, Ənvər Paşanın Abidərya kəndində olduğunu öyrəndi və şəhid olma hadisəsi bu kəşfiyyat nəticəsində baş verdi. Ancaq Ənvər Paşanı şəhid edən Ağabekov deyildi, hər hansı bir bolşevik əsgəriydi. Ağabekovun əsl soyadı Arotonovdur. Ağabekovun memuarlarında Ənvər Paşanı guya özünün şəhid etdiyi yolundakı iddiaların gerçək olmadığı artıq isbata yetirilmişdir.

Qeyd: Ənvər paşanın ölümü ilə bağlı mübahisəli iddiaların müqayisəsi üçün bax: müəllifin "Erməni məsələsi və türk-müsəlman soyqırımı" kitabının "Ermənı sui-qəsdi Türküstanda" bölümü.

* * *

Erməni millətçiləri, irqçiləri olan daşnakların düşüncələrinə yerləşdirdikləri, özlərinə görə "qutsal" bir hədəf -əski çağlarda guya özgür, möhtəşəm "hay" dövləti olmuş "Böyük Ermənistan"ın bərpası- uğrunda gizli-aşkar mücadilə etdikləri həryönlü şəkildə təsdiq olunmuş bir gerçəklikdir.

Bakı qubernatoru Nakaşidzenin erməni siyasi terrorçuları tərəfindən öldürülməsi ilə bağlı Rusiya arxivində saxlanan yuxarıdakı (üzünü yayınladığımız) sənəddə deyilir ki, Türkiyədə bölücülüklə bağlı üsyan və terrora əl atdıqdan sonra əziqdirilən erməni millətçilərinin düşüncələrinə görə, min il öncə mövcud olmuş müstəqil "Böyük Ermənistan"ın sınırları "Türkiyə Ermənistanı" və Qafqazdan başqa, Rusiya Türküstanının və İranın bir hissəsini də içərisinə alırmış.

"Rusiya Türküstanı" dedikdə Batı Türküstan aşığıdakı çağdaş türk dövlətlərinin ərazilərı daxil idi: Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan. Sonralar, 1920-ci illərdə "Türküstan" coğrafi anlayışı tədricən aradan qaldırılaraq "Orta Asiya" ilə əvəz olundu.

* * *

Gürcü alimləri, tarixi araşdırmaçılar Şota Tetvadze və Otar Tetvadze isə erməni axtarışlarının sonucu olaraq bildirirlər ki, ermənilərin qədim əcdadları vaxtilə Orta Asiyanın quzey-doğu bölgəsində yaşamış əhalidir:

"...Elmi araşdırmalar əsasında etiraf olunmuşdur ki, ermənilərin qədim əcdadları vaxtilə Orta Asiyanın quzey-doğusunda məskunlaşmış əhali olmuşdur, hansı ki, b.e.ə. XVI-XV yüzilliklərə aid Hett əlyazmalarında bu armatanlar, daha sonra, b.e.ə. XIV-XIII yüzilliklərdə isə hayasadlar adlanır. Ermənilərin bu əcdadları urumlar adlanırdı. Onlar b.e.ə. XII yüzillikdə Van gölünün güney-doğusundakı assurilərin Şupriya vilayətinə soxuldular. O dönəmdən assurilərdə Şupriya Urumad kimi xatırlanır.

B.e.ə. VIII yüzillikdə Şupriyanı tutaraq Urartuya birləşdirdilər və o bölgə Urumad və ya Armed adı altında tanındı. O vilayətin əhalisi (hais və arme) proermeni dilində danışırdı, hansı ki, tədricən böyük tayfa birliyinin dilinə çevrildi".

Ermənilərin mənşəyi haqda gürcü müəllifi M.Tamaraşvilinin1910-cu ildə Romada fransızca yayınlanmış və Vatikanın özəl ödülünə layiq görülmüş "Gürcü kilsəsi yaranışından bugünədək" kitabı Avropanın elmi dairələrində böyük əks-səda doğurmuşdur. Həmin əsərə istinadən aşağıdakı mülahizəyə diqqət edək:

"Ünlü bilim adamı Maspero təsdiq edirdi ki, "Ermənilər VIII yüzilliyin sonunda Frigiyadan gəlmişlər, sonra isə tədricən Xalisi qaynaqlarına doğru hərəkət etmişlər; Herodot dönəmində onlar Fərat çayının doğu yörəsindəki torpaqlarda, Roma coğrafiyaçılarının dilə gətirdiyi "kiçik Ermənistan"da və Arseniya çayı axarlarının batı yörəsində məskunlaşmışdılar... Yavaş-yavaş ermənilər doğuya yön aldılar, Orta Asiya və Xəzər dənizi arasında yerləşən dağ massivlərində yerləşdilər və Araz çayı ovalıqlarına endilər. İskəndər Asiyaya ayaq basdıqda onların (ermənilərin -X.İ.) təkamül hərəkətləri sona çatdı".

İndi isə Azərbaycanın ünlü dilçi-alimi, professor F.Ağasıoğlunun hərtərəfli tədqatlarına dayanaraq "ermən" boy adının başlanğıc anlamına diqqət edək:

"Armeniya, Hayastan. 1920-ci ilə qədərki tarixdən yazanların bu iki xoronimi sinonim ad kimi işlətməsi böyük qəbahətdir. Çünki bunlar ayrı-ayrı coğrafi anlam tutumu ilə müxtəlif çağlarda yaranmış və deyilən tarixə qıdır ayrı-ayrı bölgələrin adı kimi işlənmişdir. Hər iki ad etnotoponimdir, lakin biri qədim türk etnonimi olan ərmən boy adı, o birisi isə hindavropa dilli boylardan olan hayların adı ilə bağlı ortaya çıxmışdır...

Erimən adını Urartu çarlardan biri, daha doğrusu, III Rusanın atası daşıyır. Urartuca Rusa Erimenaxi yazılışını "erməni Rusa" kimi oxumuş İ.İ.Meşşaninovla razılaşmayan İ.M.Dyakonov və N.V.Harutyunyan bunu "Erimenin oğlu Rusa"şəklində oxumağı təklif edirlər (14: s.332). Nəzərə almaq gərəkir ki, urartu etnik-coğrafi hüdudlarından çox uzaqlara yayılan ermən sözü urartuca yox, türkcədir, çünki urartu dilində bu şəxsadı yalqızdır və bu dildə erimen/ermen sözləri yoxdur. Öncə türk toplumu içində ermən/ərmən/arman boyadı ilə yaranan toponimlərdən bir neçəsini göz önünə getirib, onların hansı türk ellərində yayıldığını izləyək:

Ermen dağı [Qazax eli]
Ermentau şəhəri [Qazax eli]
Eriman [Qazax eli, Ağadır bölgəsində toponim]
Erman qışlağı [=Xazarak, Özbək eli, Sariosiye ray.]
Ermen-deli obası [Türkmən eli, Yılanlı rayonu]
Ermen-deli [Türkmən eli, qaradaşlı boyunda tirə]
Ermeniqum [Türkmən eli, toponim]
Arman-qala [Aşqabad yaxınlığında qədim qala]
Arman [Eyni yerdə toponim , 1818-də adı çəkilir]
Arman toponimi [Başqord eli, Baymak rayonu]

(Ardı var)